**Vəkillər Kollegiyasının Rəyasət Heyətinin**

**Sədri hörmətli Anar Bağırova.**

Bakı şəhəri,Yasamal rayonu,Zərdabi 78V,mənzil 65də yaşayan

Sevil İsmayıl qızı Allahverdiyeva tərəfindən (055 274 96 58)

Vəkillər Kollegiyasının üzvü, vəkil Fariz Namazlının mədəni, humanist, vicdanlı davranış nümayiş etdirdiyinə, Vəkillərin Etik Davranış Qaydalarına yüksək səviyyədə əməl etdiyinə görə cənab Fariz Namazlıya və cənab Anar Bağırova

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2148
«16» 08 2021

**TƏŞƏKKÜR MƏKTUBU**

Hörmətli Anar Bəy!

Sədrlik etdiyiniz Kollegiyanın üzvləri olan vəkillərdən razılığımı bildirdiyim ikinci təşəkkür müraiətimi oxuduğunuz üçün sizə minnətdaram. Hüququ xidmətindən çox çox razı qaldığım vəkillərdən Bəxtiyar Hacıyev haqqında təşəkkürlərimi keçən həftə sizə təqdim etmişəm. Hal-hazırda da, hörmətli vəkil Fariz Namazlıdan təşəkkür müraciətimi sizə bildirməyi özümə borc bilirəm.

Öhdəmdə sağlamlıq imkanları məhdud olan övladım var, 16 ildir, atası ilə,aliment borclarını ödəmədiyi üçün məhkəmə mübahisələrimiz hələ də davam edir. Bu 16 illik məhkəmə çəkişmələrimdə digər vəkil Bəxtiyar Hacıyevdən ziyadə, vəkil Fariz Namazlı ilə də mütəmadi ünsiyyətdə oldum. Fariz bəy mənə mükəmməl, savadlı,doğru hüququ yardımlar etdi, nəticədə, məhkəmələrdə mənə faydalı aktların qəbul olunmasına nail oldum. Həmin məhkəmə aktlarının icra prosesində də, Fariz Namazlı, vəkillik adını yaraşar şəkildə mənə hüququ məsləhətlər verdi. 16 il ərzində məhkəmələr dəfələrlə məni dövlət hesabına vəkillərlə təmin etdilər, təyinatla mənə yönləndirilən vəkillərdən mənə hüququ xidmət etməkdən əsassız olaraq imtina edənlər də oldular, ancaq Fariz Namazlı vəkillik adına yaraşmış şəkildə həmişə mehriban, səmimi xarakteri ilə hüququ xidmətini, yardımını məndən əsirgəmədi.

Belə bir deyim var, "Vəkil, sanki ilkyardımdır!". Bəli, Fariz vəkil ilk yardımdır. Nə zaman çətinə düşdümsə, nə zaman sağlamlığı məhdud övladımın hüquqlarının müdafiəsi ilə bağlı məhkəmələrdə köməksiz vəziyyətdə qaldımsa, bütün bu çətin proseslərdə nə zaman Fariz bəy Namazlıya müraciət etdimsə, həmişə mənə təcili hüququ köməyini göstərdi.

**Vəkil Fariz Namazlı, özünəməxsus tərzdə bir vəkil modeli yaradıb – Vəkil Fariz Namazlı modeli, savadlı, humanist, mədəni, səbrli vəkil modeli.**

Vəkil Fariz bəy həssas, insanlıqdan anlayışı olan, mərifətli, mədəni, nəzakətli xasiyyətə sahib adamdır. Bu cür davranışlarına görə ona bir vəfa borcum var - belə qərara gəldim ki, Cənab Anar bəy, sizə təşəkkür müraciəti yazım. Xahiş edirəm, bu müraciətim vəkil Fariz Namazlının şəxsi işinə əlavə olunsun, vəkillik adını yüksəklərə qaldıran nümunəvi hərəkətləri Vəkillər Kollegiyasının Rəyasət Heyətində, kollektivdə, bütün vəkil bürolarında müzakirə olunsun, digər vəkillərə nümunə göstərilsin.

Vəkillər vətəndaşlara hüququ yardım etməmişdən əvvəl, ciddiliklərini qorumaqla, səmimi, mehriban, mərhəmətli olmalıdırlar. Ünsiyyət zamanı etik davranış qaydalarına əməl etməlidirlər. Vəkil Fariz Namazlı məhz, bu cür xarakterə sahib şəxsiyyətdir. Xahiş edirəm, mənim adımdan Fariz Namazlıya təşəkkürlərimi çatdırın, vəkilin vəkillik fəaliyyəti qiymətləndirilərkən təşəkkür məktubunu nəzərə alın.

Hörmətlə, Allahverdiyeva Sevil İsmayıl qızı 29.07.2021-ci il.